# SƏNƏDLİ TEATR ÜSLUBLARI:

## *Teatro di narrazione, verbatim və başqaları*

Tərlan Rəsulov
**Email:** *trasulov@yahoo.com; engin.rasul@gmail.com*

XX əsrin ortalarından başlayaraq hər onillikdə teatrın ölməsi barədə buraxılan şayiələr və proqnozlar, bir qayda olaraq, həmin onilliklərin sonunda özünü doğrultmur və teatr adlanan məfhum bütün bu sözlərə sanki bir cavab kimi hər dəfə yeni bir istiqamət, konsepsiya, forma meydana çıxarır. Buna misal kimi teatr sənəti XXI əsrin ilk dekadasında əvvəlki əsrin nailiyyətlərinin üstündən xətt çəkməyərək yeni dövrdə sosial tələblərə uyğun yeni konsepsiya – interaktiv teatr növlərindən biri olan "sənədli teatr" ideyasını yaratdı.

İlk olaraq sənədli teatrın nə vaxt yarandığına, anlayışına bir təyin kimi aydınlıq gətirmək lazımdır. Bu baxımdan "sənədli teatr" anlayışına Patris Pavinin "Teatr lüğəti" kitabında belə bir təyin verilib: "Sənədli teatrda göstərilən tamaşa (pyes) dramaturqun sosial-siyasi-ictimai ideyasına uyğun olaraq seçilmiş və cəmlənmiş sənədlər və ya əsl (orijinal) mənbələrdən savayı heç bir mənbəyə istinad etmir" *(2, səh. 110)*.

Həmin təyinə görə, sənədli teatr tamaşası üçün bədii material uydurma deyil, baş vermiş tarixi hadisənin əsasında yaradılır. Burda hər bir səhnə və yaxud kompozisiya "sənədlilik" elementi daşımalıdır. Süjet xətti bütöv bir hadisə deyil, həmçinin ümumi bir mövzuya xidmət edən və ya ona aid hadisələrin bir-biri ilə bağlanması nəticəsində yaranan silsilə xarakterli olmalıdır və bu hadisələr silsiləsini bir-biri ilə bağlamaq üçün müəyyən dərəcədə uydurmadan (*fiction*) istifadə edilə bilər. Tamaşanın bədii materialı kimi hadisə ilə bağlı bütün sənədli materiallar – qəzet, hökumət sərəncamları, müsahibələr və s. işlənilir. Sənədli teatr tarixi hadisələrin və ya münaqişələrin şahidləri, iştirakçılarının sözləri əsasında qurulur və burda dramaturqun əlavə müdaxiləsi minimum səviyyəyə endirilir. Bu minimalizm həmçinin tamaşada bədii tərtibata, musiqinin işlənməsinə də öz təsirini göstərir. Burda aktyorlar bir neçə rol ifa edirlər, kostyumların dəyişilməsi və bədən hərəkətlərinin dəyişilməsi hesabına baş vermiş hadisələri canlandırırlar. Bütün bu oyun çox zaman interaktiv formada, tamaşaçı ilə birbaşa ünsiyyətlə həyata keçirilir.

XIX əsrin sonlarında Avropa səhnələrində nümayiş edilən bir çox tarixi tamaşalar məhz bu şərtlərə cavab verirdi. Bu baxımdan sənədli teatr tarixi dramın vərəsəsi kimi qəbul edilə bilər. Pittsburq Universitetinin professoru Attilio Favorinin mülahizəsinə görə, sənədli teatr bir janr olaraq teatrla eyni yaşdadır və ilk sənədli teatr tamaşası kimi e.ə. 492-ci ildə yunan dramaturqu Frinixin yunan–İran müharibəsi dövrü barədə bəhs edən "Miletin işğalı" əsəri olmuşdur *(11)*.

İstənilən halda sənədli teatr daha çox müasir dövrümüzün məhsulu sayılır və bu sahədə ilk təcrübə qazanmış mütəxəssislər alman rejissorları – yuxarıda qeyd olunmuş Ervin Piskator və Bertolt Brext idi. Onlar keçən əsrin 20-ci illərində epik teatrın bir sıra tamaşalarını sosial münaqişələr və siniflərarası gərginlik mövzularına həsr etmişdilər. 30-cu illərdə Piskator bu ideyanın öz "Canlı qəzet" konsepsiyasında inkişafına çalışmışdı. Bundan başqa, məhz Ervin Piskator ilk olaraq 1925-ci ildə sənədli teatr tamaşasının elementlərindən biri olan kinoproyeksiyadan və kinokadrlardan istifadə etməyə başladı *(12)*.

Onu da qeyd etmək lazımdır ki, sənədli teatr və sənədli film janrları konseptual olaraq eyni prinsiplər üzərində qurulmuşdur. İdeya və üslub baxımından sənədli film teatra nisbətən daha çox tədqiq olunmuş, kriteriləri təyin edilmiş, faktorları, şaxələri və növləri dəqiqləşdirilmişdir, həmçinin daha çox praktiki təcrübə yığımış yaradıcı sahədir. Sənədli teatr isə ilk addımlarını atmaq üzrədir. Eyni zamanda bu iki janrın inkişafında müşahidə olunan paralellər sənədli teatr üçün yeni perspektivlər açır; məsələn, sənədli film janrında Jan Ruş *(Jean Rouch)* tərəfindən tətbiq edilən "cinéma vérité" (fransızca – "doğru kino") üslubu sənədli teatr sahəsində "verbatim" (latınca – "birbaşa deyilən söz") üslubuna yaxındır. Ümumiyyətlə, sənədli filmdə olan kriteriləri sənədli teatra tətbiq edərkən bu janrın yaxın gələcəkdə bəhrələnə biləcək formaların müxtəlifliyini təxmin etmək mümkündür; məsələn, sənədli kinematoqrafda "docufiction" ("fiction" sözü uydurma, təxəyyülün məhsulu kimi tərcümə edilir və burda daha çox bədiilik mənasını daşıyır – ingilis dilində bu söz istənilən bədii ədəbiyyata şamil edilir), "docudrama" (sənədli, tarixi faktlar əsasında qurulmuş film), "ethnofiction" (etnoqrafik bədii-sənədli film), "mockumentary" (parodik və ya yumoristik tərzdə çəkilmiş bədii-sənədli film), "pseudo-documentary" (saxtalaşdırılmış faktlar əsasında yaradılan sənədli film), "fly on the wall" (divarda milçək) üslublarından geniş istifadə olunur. Bunlardan birini misal olaraq 2015-ci ildə 65-ci Berlin kinofestivalında "Qızıl ayı" mükafatına layiq görülmüş Cəfər Pənahinin "Taksi" filmini qeyd etmək olar. Sənədli teatr janrında yeni forma və ifadə vasitələri axtaran yaradıcı insanlar bütün bu təcrübədən yararlanaraq eyni üslubları birbaşa və ya adaptə olunmuş formada səhnədə tətbiq edə bilərlər. Hazırda isə sənədli teatr tamaşaları daha çox eksperimental xarakter daşıyır, hətta "Театр.doc" kimi artıq özünü təsdiqləmiş qruplarda da gərgin yaradıcı axtarışlar gedir.

İndiki dövrdə sənədli teatrla məşğul mütəxəssislər sırasında Anna Dever Smit *(Anna Deavere Smith)*, Nilaja San, Sara Cons, Mozes Kaufman, teatr qruplarından "Tectonic Theater Project" (ABŞ), "Culture Clash" (ABŞ), "Театр.doc" (Rusiya), "Rimini Protokoll" (Almaniya), "Lagartijas Tiradas Al Sol" (Meksika), "ШиШиПоп" teatr kompaniyasını (Rusiya) və digərlərini misal gətirmək olar. Sənədli teatr formaları hələ ki çox deyil, daha doğrusu, hələ tam təcrübədən keçirilməmiş vəziyyətdədir. Ona görə də bu janrın kriteriləri və faktorlarının nəzəri cəhətdən təhqiqatı ilkin xarakter daşıya bilər. Digər tərəfdən sənədli teatr janrına aid olan, lakin öz işlənmə və nümayiş tərzinə görə o birilərindən xeyli fərqlənən və buna görə də adlandırılmaq üçün dəqiq bir termini olmayan üslubların sayı az deyil və günügündən artmaqdadır. Bu qəbildən Almaniyanın "Rimini Protokoll" teatr qrupunun müxtəlif festivallarda nümayiş elədiyi, həmçinin bəzi şəhərlərdə həyata keçirdiyi müasir incəsənət və teatr performansı həddindəki layihələri nümunədir. Bu qrupun "Remote Петербург" tamaşasında seyrçilərin özləri tamaşa ifaçılarına çevrilirlər *(14)*.

Sənədli teatrın formalaşmış növlərindən isə *Teatro di Narrazione* və daha geniş yayılmış verbatim üslublarını qeyd etmək lazımdır. *Teatro di Narrazione* (danışıq, nəql teatrı) və ya Narrativ Teatr ötən əsrin sonlarında İtaliyada yaranıb. Tamaşaboyu aktyor səhnədə tərpənmədən oturur. Heç bir kostyum, işıq və dekorasiyadan istifadə edilmir. Bu teatr növündə daha çox tarixdə olan "qaranlıq məsələlər"ə həsr edilmiş tamaşalar səhnələşdirilir; məsələn, Marko Balianinin göstərdiyi "Corpo di stato" tamaşası Aldo Moronun 1978-ci ildə "Qırmızı briqadalar" tərəfindən qətlə yetirilməsinə həsr olunub.



Sənədli teatrın daha bir parlaq və məşhur növü verbatim adlanır. Verbatim ingilis dilindən tərcümədə "birbaşa, sözbəsöz" mənasını daşıyır. O hər hansı bir hadisə və ya gündəmdə olan mövzu ilə bağlı insanlardan götürülmüş müsahibələrin sözlərinin dəqiq işlənilməsi ilə yaranmış pyes və digər bədii material əsasında qurulmuş tamaşa növüdür. Həmin tamaşa konkret şəkildə hər hansı bir hadisəni, durumu və ya bütövlükdə geniş bir dövrü əhatə edə bilər. Bunu ucra etmək üçün rejissor, dramaturq və aktyorlar tamaşanın mövzusu olan hadisənin birbaşa iştirakçılarından və şahidlərindən müsahibə alaraq, heç bir sözü dəyişməyərək onu səhnədə canlandırırlar. Əslində, verbatim teatr növü deyil, ifadə texnikasıdır, üslubudur. Bu üslubu yaradan Anna Dever Smit 1991-ci ildə Nyu-Yorkda olan küçə çaxnaşmalarına həsr edilmiş "Fires in the Mirror" ("Güzgüyə atəş") və Los-Ancelesdə baş vermiş hadisələri açıqlayan "Twilight: Los Angeles, 1992" ("Ala-toran: Los-Anceles, 1992") tamaşalarında öz texnikasını təcrübədən keçirmişdi. Verbatim tamaşalarından daha bir parlaq nümunə Mozes Kaufmanın "Tectonic Theater" teatrında "The Laramie Project" tamaşasıdır. Hətta dünya səviyyəsində məşhur İngiltərə aktyoru və rejissoru Alan Rikman "My name is Rachel Corrie" ("Mənim adım Reyçel Korridir") adlı tamaşasında İsrail ordusuna məxsus buldozerlə Qəzza zolağında yerli əczaçı Samir Nəsrullahın evinin sökülməsinin qarşısını almaq istəyən Reyçel Korrinin bu hadisə zamanı necə həlak olması barədə danışılır. Bu tamaşa ilk dəfə Londonun "Royal-Kort" teatrında nümayiş etdirilib. Yeri gəlmişkən, məhz bu teatrın Moskvada keçirdiyi treninq və məşğələlər Rusiyada "Театр.doc" kimi yaradıcı qrupun yaranmasına təkan verdi. Bu teatr artıq bir neçə festivalın, o cümlədən "Qızıl maska" beynəlxalq festivalının qalibi olub. Ənənəvi verbatim üsulu dramaturq tərəfindən heç bir sözün əlavə edilməməsini nəzərdə tutur. Tamaşanı seyr edənlər tam surətdə bilirlər ki, müşahidə etdikləri hadisələr həqiqətən baş vermişdi. "Театр.doc"da isə bu texnikaya dəyişiklik gətirə biliblər. Onların "life-game" (həyat-oyun) vasitəsi auditoriyada birbaşa personajların həyatının canlandırılmasını nəzərdə tutur. Daha bir üsul "dərin

müsahibə" adlanır və teatrın öz ixtirasıdır. Burda aktyor səhnədə personajın vəziyyətinə tam olaraq "baş vurur" və onun sözlərini öz həyat təcrübəsi kimi təqdim edir. İlk dəfə 2012-ci ildə Rumıniyanın Sibiu şəhərində keçirilən Beynəlxalq Teatr Festivalında Meksikanın "Lagartijas Tiradas Al Sol" teatr qrupunun təqdim etdiyi "El Rumor del incendio" tamaşası verbatim texnikasının tətbiq edildiyi sənədli teatr janrının bariz nümunəsidir. Səhnədə həm canlı videoyayımdan, həm videolentə çəkilmiş və ekranda göstərilən müsahibələrdən və kinoxronika kadrlarından istifadə olunur. Bu tamaşada XX əsrin 60-cı illərində baş vermiş siyasi hadisələrlə bağlı Marqarita Urias adlı inqilabçı qızın taleyindən danışılır *(15)*.

2014-cü ildə Meksikada daha bir teatrda özünü "Avtobus sürücüləri ovçusu Diana" ləqəbi ilə tanıdan Ciudad Xuarez adlı qadının həyatı, əməlləri və tutulmasından bəhs edən "Juarez: sənədli mifologiya" tamaşası göstərilmişdi *(16)*.

Bütün bu misallar Azərbaycan teatrının dünyada gedən proseslərdən uzaqlığını göstərmir. Çünki bizim teatrlarda da sənədli tamaşa sahəsinə aid müəyyən eksperimentlər və təcrübələr keçirilir. Bu baxımdan YUĞ Teatrında gənc dramaturq Ülviyyə Hedərovanın Xocalı soyqırımına həsr etdiyi "Yad.Daş" adlı tamaşasını misal gətirmək olar. Burada da sənədli teatr janrının və verbatim texnikasının bir çox şərtlərinə riayət edilərək bədii cəhətdən ifadəli səhnə əsəri yaradılıb.

Sənədli teatr və digər interaktiv teatr növlərinin son zamanlar vüsət almasını təkcə ənənəvi teatra qarşı çıxmaq və ya alternativ yollar tapmaq kimi deyil, həmçinin klassik ifa tərzinə yenilik gətirərək bütövlükdə teatrın bir institut kimi inkişafına kömək etməsi kimi dəyərləndirmək lazımdır. ◆


**Ədəbiyyat:**

1. Moore M. K. Exhibit A: An Application of Verbatim Theatre Dramaturgy: Dis. ... for Master of Arts degree in Theatre Theory & Dramaturgy, Ottawa, Canada, 2013, 81 p.
2. Pavis P. Dictionary of the Theatre: Terms, Concepts, and Analysis. Toronto: University Press, 1999, 469 p.
3. Podmaková D. Two worlds of documentary theatre // Slovenské divadlo (The Slovak Theatre) Journal, 2011, Vol. 59, No. 2, pp. 130–144.
4. Verbatim Verbatim: Techniques in Contemporary Documentary Theatre / Edited by Will Hammond and Dan Steward. London: Oberon Books Ltd., 2008, 192 p.
5. Youker T. "The Destiny of Words": Documentary Theatre, the avant-garde, and the politics of form: Dis. for the degree of Doctor of Philosophy, Columbia University, 2012, 249 p.
6. *https://en.wikipedia.org/wiki/Cin%C3%A9ma_v%C3%A9rit%C3%A9*
7. *http://chekhoved.net/blogs/newdrama/366-vremya_verbatima*
8. *https://en.wikipedia.org/wiki/Teatro_di_narrazione*
9. *http://lagartijastiradasalsol.com/*
10. *https://www.theguardian.com/stage/2014/sep/03/juarez-play-review-murders-life-cartel-violence*
11. *https://en.wikipedia.org/wiki/Phrynichus_(tragic_poet)*
12. *http://self.gutenberg.org/articles/erwin_piscator*
13. *https://en.wikipedia.org/wiki/Cin%C3%A9ma_v%C3%A9rit%C3%A9*
14. *http://aroundart.ru/2015/07/17/rimini-protokoll/*
15. *http://www.ontheboards.tv/performance/theater/el-rumor#.WN4fEYVOLDc*
16. *https://www.theguardian.com/stage/2014/sep/03/juarez-play-review-murders-life-cartel-violence*



**Резюме**

В статье проводится анализ ставших популярными в последнее время, таких видов интерактивного театра, как документальный театр, вербатим и другие, рассматривается история создания, исследуются определяющие критерии.



**Ключевые слова:** интерактивный театр, документальный театр, вербатим, нарративный театр, документальное кино, Пискатор.



**Summary**

In the article it's analyzed those kinds of interactive theatre, such as documentary theatre, verbatim, etc. have become famous recent years. Also there're considered a history of establishment and researched criteria and definition of documentary theatre, in general. Here, regarding on some samples of the performances, there are defined characteristics this kind of theatre and outlook of development.



**Key words:** interactive theatre, documentary theatre, verbatim, narrative theatre, documentary film, Piscator.